**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**16 fevral 2026-cı il** **10-1/3-1-31/2026**

## Auditor xidmətinin göstərilməsinə dair bağlanılmış müqavilənin və verilmiş rəyin “Auditorun şəxsi kabineti” sistemində qeydiyyatının düzgün aparılmamasına görə intizam tədbiri barədə

Auditorlar Palatasının Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsi (V.Cavadov) tərəfindən təqdim edilmiş 2026-cı il 15 yanvar tarixli xidməti məktubda qeyd edilənləri nəzərə alaraq “EGA Finance” MMC tərəfindən “Crocusoft” MMC-də aparılmış auditor yoxlamasının nəticələrinə dair verilmiş auditor rəyinin “Auditorun şəxsi kabineti” sistemində qeyd edilən tarixi ilə sifarişçiyə təqdim olunmuş auditor rəyinin tarixi arasında uyğunsuzluğa görə Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnaməyə uyğun olaraq “EGA Finance” məhdud məsuliyyətli cəmiyyəti (direktor – Yaqublu Araz Natiq oğlu) barəsində intizam tədbiri görülməsi məqsədilə **əmr edirəm:**

1. “Crocusoft” MMC-də aparılmış auditor yoxlamasının nəticələrinə dair bağlanılmış müqavilə və verilmiş rəyin vaxtında, tam və düzgün şəkildə “Auditorun şəxsi kabineti” sistemində qeydiyyata alınmamasına görə Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnamənin 5-ci “Xəbərdarlıq tənbehi” maddəsinin 5-ci “Bağlanmış müqavilələrin və verilmiş rəylərin vaxtında, tam və düzgün şəkildə auditorun şəxsi kabineti sistemində qeydiyyatının aparılmaması” bəndinə əsasən “EGA Finance” MMC-nə və onun direktor-auditoru Yaqublu Araz Natiq oğluna şəxsi işlərinə qeyd edilməklə xəbərdarlıq elan edilsin.
2. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu əmrdən irəli gələn məsələləri həll etsin.
3. Audit sistemində icra intizamına nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu əmrin surətinin “EGA Finance” MMC-nə göndərilməsi təmin edilsin.
4. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/cuOPQtnZvZC%2Bibj0rYpc9sYVzH0j%2BxKujvPAXzCGLbE%3D